INSAN HAQLARI

# Komitə: İqbal Əbilov karsa salınıb

indicə




İqbal Əbilov

Həbsdə olan tədqiqatçı, "Talış Milli Akademiyasının xəbərləri" jurnalının baş redaktoru **İqbal Əbilov**un saxlanıldığı Bakı İstintaq Təcridxanasında cərimə kamerasına (kars) salındığı bildirilir.

İqbal Əbilovun Hüquqlarını Müdafiə Komitəsinin yaydığı məlumata görə, iyulun 9-da tədqiqatçının ailə üzvləri ilə görüş günü olsa da, buna icazə verilməyib.

Komitədən vurğulandığına görə, valideynlər sənədləri təqdim etdikdən sonra təxminən bir saat gözlədilərək gərginlikdə saxlanılıblar. Ardınca isə heç bir əsaslı izahat verilmədən sənədlər geri qaytarılıb və gətirilən sovqat qəbul edilməyib: **"Yaxınlarına onun yerinin dəyişdirildiyi bildirilib və "gələn həftə gəlin" deyilərək geri qaytarılıblar. Eyni zamanda, İqbal Əbilovun vəkili Fariz Namazlıya da onunla görüşməyə icazə**

**verilməyib. Vəkilə İqbal Əbilovun karsa salındığı bildirilsə də, bunun konkret səbəbi açıqlanmayıb".**

Komitə İqbal Əbilovun hüquqlarının kobud şəkildə pozulduğunu, onunla əlaqənin kəsildiyini və saxlanma şəraitinə dair məlumatların gizlədildiyini vurğulayaraq bundan narahatlığını ifadə edib.

Komitənin açıqlamasına cavabdeh rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb.

## Xatırlatma

37 yaşlı İ.Əbilov həbs olunana qədər uşaqlıqdan ailəsi ilə birlikdə Belarusda yaşayıb və arabir Azərbaycana gəlib-gedib. O, sonuncu dəfə 2024-cü ilin iyununda əmisi oğlunun toyuna gəlib. Geri qayıdarkən hava limanında tədqiqatçıya ölkədən çıxışına qadağa qoyulduğu bildirilib. Bir neçə gün sonra Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları onu saxlayıblar.

Ona Cinayət Məcəlləsinin 274 (dövlətə xəyanət), 281 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283-cü (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələri ilə ittiham irəli sürülüb. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə bu maddələr üzrə ona 18 il həbs cəzası verilib.

Əbilov özünü təqsirli bilmir. O, aşağı instansiya məhkəmələrindəki çıxışlarında həbsini talış xalqının tarixini və mədəniyyətini təbliğ etməsi ilə əlaqələndirib.

Azərbaycan rəsmiləri isə ölkədə milli ayrı-seçkiliklə bağlı iddiaları əsassız sayır, bütün etnik qruplara bərabər imkan və şərait yaradıldığını bəyan edirlər.

## Buna da bax:

İqbal Əbilov talış dilində tərcüməçi istədi, ingiliscə danışdı – 18 il həbs qüvvədə qaldı

Hökumətin etnik azlıqlarla bağlı tənqidçisinin tutulub Azərbaycana gətirildiyi deyilir

Redaktor: "Honi' jurnalının çətinlikləri var'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur